

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 mart 2023-cü il №19 (2731) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz ermənilərdən fərqli olaraq hər hansı hərbi cinayət törətmədik

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 9-da "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu işə başlayıb.*

Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Əvvəlcə xatirə fotosu çəkdirilib.

X Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin sözü Azərbaycan Prezidenti İlham Əliyevə verib.

Dövlətimizin başçısı Forumun açılış mərasimində çıxış edib.




### Prezident İlham Əliyevin çıxışı

- Sabahınız xeyir xanımlar və cənablar.

Zati-alilər.

Hörmətli qonaqlar.

Sizin hər birinizi Bakıda salamlayıram, X Qlobal Bakı Forumunda iştirakınıza görə təşəkkür edirəm. Əvvəlcə mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGBM) İdarə Heyətinin üzvlərini nailiyyətləri münasibətilə təbrik etmək istəyirəm. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqa və cənab Serageldinə liderlik keyfiyyətlərinə, Mərkəzin inkişafına töhfələrinə və Qlobal Bakı Forumunun aparıcı beynəlxalq forumlardan birinə çevrilməsi ilə bağlı mühüm nailiyyətlərinə görə xüsusi minnətdarlığımı bildirirəm. Mən bu ilin yanvar ayında Davos Dünya İqtisadi Forumunda, fevralda Münxen Təhlükəsizlik Konfransında iştirak etmişəm, indi isə mart ayında Bakıda Qlobal Forumda iştirak edirəm.

Onu deyə bilərəm ki, Bakı Qlobal Forumunun iştirakçılarının təmsilçilik səviyyəsi və intellektual potensialı aparıcı beynəlxalq konfranslara uyğundur. Əlbəttə ki, bu, həmsədrlərin, bütün idarə heyətinin düşünülmüş və səmərəli fəaliyyətinin təzahürüdür. Burada 60 ölkədən 350 nəfər iştirakçı var. Onların sırasında 50-dən artıq hazırkı və sabiq prezident və baş nazir var. Beləliklə, təxmin edə bilərik ki, müzakirələrin səviyyəsi kifayət qədər yüksək olacaq. Əlbəttə, ən dəyərlisi beynəlxalq münasibətlərlə bağlı yeni yanaşmalara dair tövsiyələrdir. Mən Forumun proqramı ilə tanış oldum. O, hər zaman olduğu kimi kifayət qədər genişdir. Proqram Yaxın Şərqi, Afrikanı və Qərbi Balkanları əhatə edir. Bununla yanaşı, bu gün dünya gündəliyinin aktual məsələləri də müzakirələr mövzusu sırasındadır.

Eyni zamanda, mən Mərkəzin adını daşıdığı dahi Azərbaycan şairi Nizami Gəncəvinin xatirəsinə və irsinə olan dərin hörmətlə bağlı təşəkkürümü bildirmək istəyirəm. Nizami Gəncəvi Azərbaycanın qədim şəhərlərindən olan özünün doğma Gəncə şəhərində dünyaya göz açıb, yaşayıb, orada vəfat edib və dəfn olunub. Onun müdrikliyi və istedadı Azərbaycan xalqının istedadını və müdrikliyini təcəssüm etdirir.

Mən burada müzakirə ediləcək bəzi mövzularla bağlı öz fikirlərimi və bəzi məlumatlarla bölüşmək istərdim. Panellərdən birinin multilateralizmə həsr olunması məni məmnun etdi. Xüsusilə ona görə ki, Azərbaycan Qoşulmama Hərəkatında 2019-cu ildə öz üzərinə götürdüyü və 120 dövlətin yekdil qərarı ilə daha bir il - 2023-cü ilədək uzadılmış sədrliyini başa çatdırır. Biz böyük ənənələrə sahib, lakin müəyyən dövr ərzində təəssüf ki, bir az passiv Qoşulmama Hərəkatını, - əgər belə demək olarsa, - canlandırmağa çalışdıq. Bu məqsədlə biz beynəlxalq tədbirlər və üç Zirvə toplantısı təşkil etdik. Biz COVID-19-a dair BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkilinin təşəbbüskarı olduq. Biz fəal çalışaraq pandemiya ilə mübarizə sahəsində məlumat bazasının yaradılmasına nail olduq ki, daha sonra o, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən istifadə edildi. Biz Zirvə toplantılarından birini pandemiya ilə mübarizəyə həsr etdik. Biz pandemiyanın ilk aylarında peyvənd milletçiliyinə və peyvəndlərin qeyri-bərabər paylanılmasına etiraz səsimizi ucaltdıq. Biz COVID-19-dan sonrakı dövr məsələsinə diqqət yönəltdik. Bununla yanaşı, biz əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım etdik. Biz koronavirusla mübarizəni dəstəkləmək üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində birbaşa ianə etdik.

Eyni zamanda, biz Qoşulmama Hərəkatının institusional inkişafını təmin etməyə çalışdıq. Bu məqsədlə Qoşulmama Hərəkatının 60 illik tarixində ilk dəfə biz təşəbbüsümüzlə Parlament Şəbəkəsini yaratdıq. Onun ilk iclası Bakıda təşkil edildi. Bundan əlavə, Hərəkatın Gənclər Şəbəkəsi də təsis edildi və onun katibliyi Bakıda yerləşir. Biz bu ilin sonunda sədrliyimiz başa çatdıqdan sonra da səylərimizi davam etdirəcəyik. Çünki biz bugünkü parçalanmış dünyada belə bir Hərəkata böyük ehtiyacın olduğunu görürük.

Bu gün biz soyuq müharibənin bitməsindən sonra bu günədək baş vermiş bəlkə də ən ciddi Şərq-Qərb qarşıdurmasının şahidi oluruq. Qoşulmama Hərəkatı körpülərin salınmasında, münaqişələrin həllində yeni yanaşmaların formalaşdırılması və Qoşulmama Hərəkatının təməl prinsiplərinin - Bandunq Prinsiplərinin təmin edilməsində mühüm rol oynaya bilər və oynamalıdır. Həmin prinsiplər - sülh, əməkdaşlıq, ərazi bütövlüyünə və suverenliyə hörmət, habelə sərhədlərin toxunulmazlığından ibarətdir.

Münaqişələrin həllinə gəldikdə, bu mövzu Forum çərçivəsində geniş şəkildə müzakirə ediləcəkdir. Mən isə öz təcrübəmizlə bağlı fikirlərimi bölüşə bilərəm. Münaqişələrin həlli iki cür olur - dinc yolla və qeyri-dinc yolla. Biz Ermənistanla münaqişəni dinc yolla həll etməyə çalışırdıq. Baxmayaraq ki, Ermənistan tərəfindən işğal Azərbaycanda humanitar fəlakətə səbəb olmuşdur. İşğal nəticəsində bir milyondan artıq azərbaycanlı yurdsuz qalmış, qaçqın və məcburi köçkünə çevrilmişdir.

Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb, onları Qarabağdan sürgün salıb və bir milyon azərbaycanlıya əzab-əziyyət verib. Münaqişəni dinc yolla həll etmək və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün Ermənistanı inandırmaq cəhdlərimizə baxmayaraq, Ermənistan, sadəcə, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadı və beynəlxalq hüquqa, beynəlxalq ictimaiyyətə hörmətsizlik göstərdi. 1992-ci ildə münaqişə yarandıqdan sonra ATƏT Minsk qrupunu təsis etdi. Lakin əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu hər hansı nəticəyə nail olmadı. Danışıqlar prosesinin sonunda bizə belə görünürdü ki, onlar, sadəcə, vəziyyəti dondurmaq istəyirlər. Onlar bu münaqişəni daimi dondurmaq istəyirdilər. Lakin biz bununla razılaşmadıq. Biz özünümüdafiə hüququmuzdan, BMT-nin Xartiyasından, xüsusən də onun 51-ci maddəsindən istifadə edərək düzgün olanı etdik. Biz öz ərazilərimizi güc tətbiq etməklə azad etdik. Bu, bizim legitim hüququmuz idi.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Biz ermənilərdən fərqli olaraq hər hansı hərbi cinayət törətmədik




**(Əvvəli 1-ci səhifədə)**

Beləliklə, çalışdıq ki, dinc yolla həll edək. Bizdə alınmadı, ona görə ki, erməni tərəfi konstruktiv yanaşma göstərmədi. Biz isə güc tətbiq etdik və öz ərazimizi azad etdik. Hazırda, təxminən iki il yarım vaxt ötür və biz 10 min kvadratmetrlərlə ölçülən və tamamilə dağıdılmış böyük ərazini yenidən tikirik. Yeri gəlmişkən, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndələri Şuşaya səfər ediblər və orada panel müzakirələr aparıblar. Onlar Füzulidə və Şuşada dağıntıları görüblər və bu, həqiqətən də, barbarlıq, urbisid, kultursid, ekosid əlamətidir. Bunu edən bizim qonşularımız olub. Azərbaycan xalqının qisas almaq üçün mənəvi hüququ var və mən bunu anlayıram. Lakin mənim mesajım döyüş meydanında qisası almaqla həyata keçdi.

Biz ermənilərdən fərqli olaraq hər hansı hərbi cinayət törətmədik. Biz ermənilərdən fərqli olaraq soyqırımı törətmədik. Biz döyüş meydanında qisas aldıq. Beləliklə, hazırda sülh üçün vaxt yetişib. Bununla belə, 2020-ci ilin noyabrında müharibə bitdikdən dərhal sonra biz sülh danışıqlarına başlamaq üçün təşəbbüs irəli sürdük və Ermənistanla sülh müqaviləsinin əsasını təşkil edəcək beş məşhur prinsipi təqdim etdik. Ümid edirik ki, vasitəçiliyə cəhd göstərən beynəlxalq iştirakçılar Ermənistanı şansı əldən buraxmamaqda dilə gətirəcəklər. Onlar müstəqil ölkə olmaq şansını itiriblər. Onlar tamamilə asılı olan, digər ölkənin və hazırda, ola bilsin, digər ölkələrin müstəmləkəsinə çevriliblər. Beləliklə, onlar bizə qarşı təcavüz səbəbindən, həqiqətən, müstəqil olmaq, öz gələcəyini qurmaq şansını əldən buraxıblar.

Beləliklə, hazırda onlar üçün öz qonşuları ilə qonşu kimi davranmaq şansı yaranıb. Bir sözlə, biz sülh istəyirik. Biz hər hansı digər müharibəni istəmirik. Hesab edirik ki, sülhə nail olmaq olar. Ötən ilin oktyabrında Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış məsələlər, xüsusən də, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət əslində onu göstərir ki, sülhə nail olmaqda manea yoxdur.

Azərbaycandakı erməni azlığına gəldikdə, Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda azlıqların hüquqları Konstitusiyamız tərəfindən qorunur. Azərbaycanda real vəziyyətlə tanış olan hər kəs deyə bilər ki, Azərbaycan yüksək dini və etnik dözümlülüyü ilə seçilən, müxtəlif etnik qrupların, konfessiyaların nümayəndələrinin dinc və ləyaqətli şəkildə yaşadığı ölkədir. Bir sözlə, əminəm ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin həyatı işğal dövründən fərqli olaraq daha yaxşı olacaq. Hər münaqişənin öz tarixi, öz dinamikası və sonu var. Lakin vacib odur ki, ölkələr arasında mübahisələr beynəlxalq hüquq əsasında həll olunsun, onların ərazi bütövlüyü və suverenliyi güc hesabına dəyişdirilməsin. Bu, Azərbaycanın mövqeyidir. Bu mövqe yalnız bizim məsələmizə deyil, dünyadakı bütün münaqişələrə şamil edilir. Biz bu mövqeyi açıq şəkildə bəyan edirik.

Panel müzakirələrdən biri enerji və daşımalar dəhlizlərinə, enerji keçidinə həsr olunub. Sonuncu görüşümüzdən sonra mən qonaqlarımızı məlumatlandırmaq istərdim. Ötən ilin iyunundan etibarən xeyli hadisələr baş verib. Əvvəlcə, Azərbaycan və Avropa Komissiyası Enerji Sahəsində Anlaşma Memorandumunu imzalayıblar. Memorandum Bakıda Avropa Komissiyasının sədri xanım Ursula Fon der Lyayen və mənim tərəfimdən imzalandı. Bu Memorandum hazırda icra olunur. Azərbaycan Avropaya öz təbii qaz təchizatını və ümumi qaz ixracını xeyli artırıb. Əgər biz 2019-cu ildə ümumən 19 milyard kubmetr qaz ixrac etmişdiksə, bu il o, 24 milyard kubmetrdən artıq olacaq və onun ən azı yarısı Avropaya nəql ediləcək.

Bu, hazırkı geosiyasi vəziyyəti nəzərə alaraq, Avropa istehlakçılarının təbii qaza çıxışının təmin edilməsində onlara birmənalı olaraq yardım etdi və yardım etməkdə davam edəcək. Biz qaz yataqlarımıza sərmayələrimizi artırmışıq. Hazırda isə görürük və nəinki görürük, biz hətta ixrac boru kəmərlərinin genişləndirilməsi üzərində işləyirik. Cənub Qaz Dəhlizi istismara verildi. Boru kəmərinin sonuncu hissəsi 2020-ci il dekabrın 31-də istismara verildi. Hazırda iki ildən bir az çox vaxt keçir və biz sistemi genişləndirməliyik - TANAP-ı 16-dan 32 milyard kubmetrə, TAP-ı isə 10-dan 20 milyard kubmetrə. Bu, sırf Avropada artan tələbatla bağlıdır. Belə olmasaydı, biz sərmayə qoymazdıq. Rusiya-Ukrayna müharibəsi başlayandan sonra biz qaz təchizatı və ya onun artırılması ilə bağlı 10-dan artıq Avropa ölkəsindən müraciət almışıq və onun üzərində işləyirik. Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş adlandırır. Bu, elə bir haldır ki, biz hər zaman etibarlı tərəfdaş olmuşuq.

Biz nefti, neft məhsullarını, təbii qazı, elektrik enerjisini, neft-kimya məhsullarını beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixrac edirik. Ötən ilin dekabrında Buxarestdə əlamətdar hadisə baş verdi - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Avropa Komissiyasının Sədrinin iştirakı ilə yaşıl enerji və onun ötürülməsinə dair Saziş imzaladılar. Biz onun əsasında Azərbaycandan Avropaya dənizdən külək enerjisi stansiyalarından ötürmə xəttini çəkəcəyik. Həmin ötürmə xəttinin bir hissəsi Qara dənizin dibi ilə gedəcək. Hazırda biz texniki əsaslandırma prosesini aparırıq.




Həmin layihə ilə bağlı rəhbər komitənin ilk iclası fevral ayında Bakıda təşkil edilib və bu, Avropanın enerji xəritəsində mühüm dəyişiklik olacaq. Biz Avropanın enerji xəritəsini neft və qaz boru kəmərlərinin inşası ilə artıq dəyişmişik, indi isə növbə yaşıl enerjini təmin edəcək elektrik xətlərinindir. Məlumat vermək istəyirəm ki, IX Qlobal Bakı Forumundan indiyədək Azərbaycan dünyanın bir neçə aparıcı enerji şirkətləri ilə müqavilə və anlaşma memorandumları imzalayıb. Bunun nəticəsində Azərbaycanda günəş və külək enerjisindən 25 meqavat həcmində yaşıl enerji əldə olunacaq. Bu, gözəl nailiyyətdir, Azərbaycanı beynəlxalq yaşıl enerji bazarında vacib təchizatçıya və oyunçuya çevirəcək. Biz yaşıl hidrogeni ixrac etməyi planlaşdırırıq. Beynəlxalq Maliyyə Korporasiyası (IFC) Xəzər dənizində bizim külək enerjisi potensialımızla bağlı yekun dəyərləndirməni başa çatdırıb və onun 157 qiqavat olduğunu təsbit edib. Buraya quruda olan daha 40 qiqavat potensialı da əlavə etmək olar.

Bu, dünya enerjisinin gələcəyidir və Azərbaycanın gələcəyidir. Enerji sahəsində keçid olduqca sürətli gedir. Qeyd etdiyim kimi, iyun ayında sonuncu görüşümüzdən sonra bütün sadaladıqlarımı həyata keçirdik. Burada nəqliyyat dəhlizləri ilə bağlı müzakirələr olacaq.



Məlumat üçün bildirim ki, ötən il Azərbaycan ərazisindən keçən tranzitin həcmi 75 faizdən çox artıb. Bizim müasir daşımalar infrastrukturumuza tələbat heç vaxt olmadığı qədər böyükdür - dəmir yolları və avtomobil yolları mövcuddur, Xəzər dənizində ən böyük donanma və regionda ən geniş yük aviaparklarından biri yaradılıb. Biz daşımaların təhlükəsizliyinə həqiqətən də böyük töhfə vermişik. Çünki bu gün bir çox ölkənin daşımaların təhlükəsizliyinə ehtiyacı var. Onlar yeni marşrutlar axtarışındadır və həmin yeni marşrutlardan biri Azərbaycandan keçir. Əminəm ki, proqrama daxil olan bu və ya digər mövzularla bağlı kifayət qədər maraqlı müzakirələr olacaq, hər zaman olduğu kimi, qonaqlarımız gələcəyimizi planlaşdırmaq üçün dəyərli ideyalarını və tövsiyələrini verəcəklər. Habelə dünya liderləri üçün də yaxşı tövsiyələr olacaq.

Beləliklə, biz dünyamızın daha dinc və təhlükəsiz olmasına töhfə verməyə çalışacağıq. Sizə maraqlı müzakirələr arzulayıram. Diqqətinizə görə sağ olun.

* * *

Forum işini panel iclaslarla davam etdirib.

* * *

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq mərkəzə çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır.

Bu dəfə "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusuna həsr olunan Qlobal Bakı Forumuna bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 4 prezident, 2 baş nazir, 6 spiker və nazir, BMT-nin 5 qurumunun rəhbərlikləri, 25 sabiq prezident, 21 sabiq baş nazir, 23 ölkənin xarici işlər nazirlərinin müavinləri olmaqla, ümumilikdə 61 ölkədən 360-dək nümayəndə iştirak edir.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikasının müdafiə naziri NATO nümayəndəsi ilə görüşüb



Martın 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi general-leytenant Mustafa Oğuz ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, türkiyəli qonaq əvvəlcə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını və Türk şəhidliyini ziyarət edib, üzərinə gül dəstələri qoyaraq ehtiram nümayiş etdirib.

Sonra Müdafiə Nazirliyində görüş keçirilib. Qonağı salamlayan general-polkovnik Zakir Həsənov onu ölkəmizdə görməkdən məmnun olduğunu ifadə edib.

Müdafiə naziri əvvəlcə Türkiyədə baş verən güclü zəlzələ nəticəsində həlak olanların yaxınlarının dərdlərinə şərik olduğunu qeyd edib, ailələrinə dərin hüznlə başsağlığı verib və bütün yaralılara şəfa diləyib. Türkiyənin acısı bizim də acımızdır deyən nazir Azərbaycanın hər zaman qardaş ölkənin yanında olduğunu xüsusi vurğulayıb.

Sonra general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan islahatlar, azad edilən ərazilərdə görülən işlər, eləcə də Azərbaycan-Ermənistan şərti dövlət sərhədi və Qarabağ iqtisadi rayonundakı cari vəziyyət barədə qonağı məlumatlandırıb.

NATO ilə əməkdaşlıqda əldə edilən uğurlardan danışan müdafiə naziri qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.



General-leytenant Mustafa Oğuz öz növbəsində zəlzələdən sonra göstərilən dəstəyə görə təşəkkürünü bildirib. Martın 5-də səhər saatlarında qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçularına rəhmət diləyib və onların ailələrinə dərin hüznlə başsağlığı verib.

Daha sonra Azərbaycan ilə əməkdaşlığın cari vəziyyətindən danışan NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi bu sahədə əldə edilən müsbət nəticələrdən məmnunluğunu ifadə edib.

Görüşdə Azərbaycan-NATO hərbi əməkdaşlığının Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Sonda ikitərəfli əlaqələrin inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan-NATO hərbi əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, martın 9-da müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi general-leytenant Mustafa Oğuz ilə görüşüb.

Baş Qərargah rəisi qonağı salamlayaraq Azərbaycan ilə NATO arasında əlaqələrin inkişaf etdiyini, habelə Azərbaycan Ordusunun nümayəndələrinin NATO-nun müxtəlif proqramları çərçivəsində fəal iştirakını qeyd edib.

Görüşdə NATO-nun Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində Şimali Atlantika Alyansının bölmələrimizin hazırlığına verdiyi töhfə yüksək dəyərləndirilib, həmçinin mövcud və yarana biləcək təhdidlərə qarşı birgə fəaliyyət istiqamətləri müzakirə edilib.

General-leytenant M.Oğuz ölkəmizə səfərindən məm-



nunluğunu ifadə edib, Azərbaycan Ordusunun hərbi qulluqçularının NATO ilə tərəfdaşlıq çərçivəsində bütün sahələrdə fəaliyyətini, o cümlədən sülhməramlı missiyalarda nümayiş etdirdiyi peşəkarlığı yüksək qiymətləndirib.

Sonda NATO ilə əməkdaşlığın müxtəlif sahələrində inkişaf perspektivləri müzakirə edilib.

# Ermənistan tərəfi mövqelərimizi atəşə tutmaqla bölgədə süni gərginlik yaratmağa çalışır

Martın 8-i saat 21:30-dan martın 9-u saat 04:15-dək ordumuzun Azərbaycan-Ermənistan şərti sərhədində və Qarabağ iqtisadi rayonunda yerləşən mövqeləri 23 dəfə atəşə tutulub.

Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu, Basarkeçər rayonunun Yuxarı Şorca, Aşağı Şorca, Günəşli, Əzizli yaşayış məntəqələri və Çəmbərək rayonu istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu, Zəylik, Mollabayramlı, Yellicə, Yuxarı Ayrım, Daşkəsən rayonunun Astaf, Gədəbəy rayonunun Zamanlı və Göyəmli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bundan başqa Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocavənd, Laçın, Xocalı rayonları və Şuşa şəhəri istiqamətlərində yerləşən mövqeləri də fasilələrlə atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan bütün istiqamətlər üzrə adekvat cavab tədbirləri görülüb.

Ermənistan silahlı qüvvələri mövqelərimizi sistematik atəşə tutmaqla ordumuzu cavab atəşi açmağa təhrik edir və bununla da şərti sərhəddə fəaliyyət göstərən Avropa İttifaqının mülki missiyasının nümayəndələrində yanlış rəy formalaşdırmağa, eləcə də bölgədə süni gərginlik yaratmağa cəhd edir.

Bir daha bildiririk ki, Ermənistan tərəfindən törədilə biləcək təxribatlara və bunun nəticəsində baş verəcək insan tələfatına görə bütün məsuliyyət rəsmi İrəvanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Əlahiddə Ümumqoşun Orduda avtomobil texnikalarına baxış-müsabiqəsi keçirilib

Əlahiddə Ümumqoşun Orduda istismarda olan arxa təminatı avtomobil texnikalarına baxış-müsabiqəsi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri arasında təşkil olunan baxış-müsabiqəsində istismarda olan arxa təminatı avtomobil texnikalarının texniki göstəricilərinin yüksək səviyyədə saxlanılması-





na, həmçinin təlimata uyğun istifadə və istismarına xüsusi diqqət yetirilib.

Hərbi qulluqçuların yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğularının, səyyar soyuducuların, səyyar tipli çörək zavodlarının, su çənlərinin və səhra mətbəxlərinin cəlb edildiyi baxış-müsabiqəsində texnikalara gündəlik texniki xidmətin göstərilməsi ardıcıllığı yoxlanılıb.

Ən yaxşı nəticəni göstərən hərbi hissələr mükafatlandırılıblar.

# Hərbi liseydə orta ümumtəhsil məktəblərinin çağırışaqədərki hazırlıq üzrə hərbi rəhbərləri ilə toplantı keçirildi



Müasir Azərbaycan dövlətinin qurtuluş və inkişaf dövrü Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz töhfəsini verərək, onun gələcək inkişaf strategiyasını müəyyən edib.

Böyük şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biri də müasir Azərbaycan Ordusunun memarı olmasıdır. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı olan bugünkü güclü, rəşadətli Azərbaycan Ordusu Ulu Öndər Heydər Əliyevin şah əsərlərindən biridir. Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin millətimizin xilaskarlıq missiyasını üzərinə götürən bənzərsiz siyasi lider olduğunu hər zaman xatırlayır, onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır. 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Ulu Öndər dühasına göstərilən yüksək hörmət və ehtiramın təcəssümü oldu.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan Ordusunda da "Heydər Əliyev İli" ilə əlaqədar təsdiq edilmiş plana uyğun olaraq silsilə tədbirlər həyata keçirilir. Növbəti belə tədbir vaxtilə Ümummilli Liderin təşəbbüsü il yaradılmış Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oldu.

"Heydər Əliyev İli" ilə əlaqədar müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi Azərbaycan Ordusunda keçiriləcək tədbirlər planına əsasən martın 6-da Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə toplantı keçirildi. Toplantıda Müdafiə Nazirliyinin, Elm və Təhsil Nazirliyinin nümayəndələri, eləcə də orta ümumtəhsil məktəblərinin rəhbərləri iştirak etdilər. Toplantı iştirakçıları əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ərazisindəki Heydər Əliyev Mərkəzini ziyarət etdilər. Ulu Öndərin büstü önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə ehtiram nümayiş etdirdilər.

Ziyarətçilərə mərkəzin zəngin ekspozisiyası barədə ətraflı məlumat verildi. Ümummilli Liderin həyat və fəaliyyətinin müxtəlif anlarını əks etdirən tarixi sənədlər, fotolar, kitablar qonaqlarda böyük maraq oyatdı. Dahi şəxsiyyətin bütün sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də gördüyü misilsiz fəaliyyətlərindən bəhs edildi.

Qeyd olundu ki, Ulu Öndərin təşəbbüsü ilə 1971-ci ildə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında yaradılmış Cəmşid Naxçıvanski adına Hərbi Lisey bu gün ordumuzun peşəkar zabit kadrlarının yetişməsində mühüm rol oynayır. Ölkəmiz müstəqilliyini yenidən bərpa etdikdən sonra liseyin məzunlarının Birinci Qarabağ müharibəsində və Vətən müharibəsində qəhrəmancasına döyüşdüyü vurğulandı. Bildirildi ki, ölkəmizin ərazi bütövlüyünün qorunması və bərpası uğrunda gedən döyüşlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirən hərbi qulluqçulardan əksəriyyəti göstərdikləri şücaətə görə orden və medallarla təltif olunub, 11 nəfər Azərbaycanın Milli Qəhrəmanı və 19 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Sonra Hərbi lisey şəhərciyində xalqımızın igid oğlu Cəmşid Naxçıvanskinin şərəfinə ucaldılan abidə qarşısına gül dəstələri düzülərək ehtiram nümayiş olundu. Toplantı iştirakçılarına Azərbaycanın məşhur hərbi xadimi Cəmşid Naxçıvanski haqqında məlumat çatdırıldı.

Daha sonra hərbi lisey ərazisində təşkil olunan silah, əşya və ərzaq təminatı növlərindən ibarət təlim nöqtələri ilə tanışlıq oldu. Bildirildi ki, Azərbaycan Ordusunun ərzaq təminatına müxtəlif çeşiddə və yüksək kaloridə qida məhsulları daxildir. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Baytarlıq Laboratoriyasında ərzaq məhsullarının müayinəsi aparıldığı, ərzağın tam yararlı olmasına və keyfiyyət standartlarına uyğun gəlməsinə nəzarət edildiyi qeyd olundu. Bundan başqa, qonaqlara Cəmşid Naxçıvanski adına Hərbi Lisey kursantlarının formaları da təqdim olundu.

Hərbi liseyin klubunda davam edən tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Azərbaycan Ordusunun inkişafı, qüdrəti və 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən bəhs edən videoçarx nümayiş olundu.

Polkovnik Elşad Əbilov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı uğurlu ordu quruculuğu siyasətindən, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində atılan addımlardan söz açdı. "Sözsüz ki, Azərbaycanda nizami ordunun yaranması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin ordu quruculuğu siyasətini Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirərək Azərbaycan Ordusunu bölgədə ən güclü və qüdrətli orduya çevirdi. Dövlət başçısının müasir ordu quruculuğu istiqamətində qəbul etdiyi qərarlar və həyata keçirdiyi kompleks tədbirlər nəticəsində Vətən müharibəsində Azərbaycan Ordusu düşmən üzərində parlaq Zəfər qazandı. Ordumuzun bölgə liderinə çevrilməyinə baxmayaraq inkişaf prosesi bu gün də davam edir, arsenala yeni silah və texnikalar əlavə olunur, hərbi qulluqçuların sosial-məişət şəraiti yaxşılaşdırılır. Azərbaycan əsgərinin döyüş ruhu və mənəvi-psixoloji vəziyyəti hər zaman ən önəmli amillərdən sayılır".









Polkovnik-leytenant Anar Eyvazov məktəblilərin sosial şəbəkələrdə fəaliyyəti haqqında çıxış edərək, əxlaq və milli-mənəvi dəyərlərin qorunmasının vacib olduğunu vurğuladı. "Təbii ki, XXI əsrdə sosial media artıq cəmiyyətin həyatına tam inteqrasiya olunub. Müdafiə Nazirliyinin də sosial şəbəkələrdə 4 rəsmi hesabı var: Facebook, İnstagram, Twitter və Telegram. Vətən müharibəsində, başda Ali Baş Komandan olmaqla, hər birimiz sosial mediada informasiya müharibəsi aparırdıq. Hər birimiz şahidik ki, Vətən müharibəsinin gedişatında Ali Baş Komandanımız tərəfindən Twitter hesabı vasitəsi ilə xəbərlər bütün dünyaya çatdırılırdı. Bundan başqa cənab Prezident müxtəlif yerli və xarici televiziya kanallarına müsahibələr də verirdi. Və bu informasiya müharibəsində düşmən üzərində başlıca üstünlüyümüz idi. Biz də Vətən müharibəsi zamanı durmadan fəaliyyət göstərərək, qarşı tərəfin apardığı informasiya qarşıdurmasında qələbə qazandıq. Düşmən çoxlu sayda dezinformasiya və yalan xəbərlər yaysa da, biz vahid səslə çıxışlar edir, onlara qarşı mübarizə aparırdıq.

Biz hər birimiz sosial şəbəkələrdə cəmiyyətimizin, xüsusilə gənclərimizin yanında olmalıyıq. Onlara istiqamət verərək, gənclərimizin düşüncələrinə müsbət təsir göstərməliyik, vətənpərvərlik hissinin yüksək səviyyədə saxlanılmasına xidmət etməliyik".

Tədbirdə hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial müdafiəsi, gənclər və yeniyetmələr arasında vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi dəyərlərin rolu, gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyələndirilməsi və digər mövzular ətrafında çıxışlar edildi, maraq doğuran suallar cavablandırıldı. Çıxış edənlər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi hakimiyyətinin bütün dövrlərində gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə ciddi diqqət yetirdiyini bildirərək, onun dediyi "zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" sözlərini nəzərə çatdırdılar. Qeyd etdilər ki, Vətəni müdafiə etməyin, torpaqlarımızı qorumağın, hərbi vəzifə daşımağın şərəfli iş olduğunu gənclərə aşılamaq hər birimizin borcudur. Bildirdilər ki, pedaqoji kollektiv olaraq daim çalışırıq ki, şagirdlərdə Vətənə məhəbbət hissini daha da yüksəldərək, vətənpərvərliyin məzmununu onlara düzgün çatdıraq. Bu istiqamətdə aparılan uğurlu işlərin nəticəsi olaraq son zamanlar xüsusi təyinatlı hərbi təhsil müəssisələrinə qəbul olmaq istəyən gənclərin sayının daha da artdığı diqqətə çatdırıldı.

Sonda xüsusi təyinatlı hərbi təhsil müəssisələrinə qəbul qaydaları barədə hazırlanmış videoçarx nümayiş etdirildi, çağırışaqədərki hərbi rəhbərlərə qəbul qaydaları ilə məlumat açıqcaları verildi.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# NATO-nun nümayəndə heyəti "N" hərbi hissəsini ziyarət edib







Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi general-leytenant Mustafa Oğuzun rəhbərlik etdiyi nümayəndə heyəti "N" hərbi hissəsini ziyarət edib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisindəki abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Qonaqlara hərbi hissənin tarixi, əsas fəaliyyət istiqaməti, eləcə də NATO-Azərbaycan əlaqələri haqqında brifinq təqdim olunub, ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Sonra hərbi hissənin silahlanmasında olan döyüş vasitələri ilə tanış olan nümayəndə heyətinə onların taktiki-texniki göstəriciləri haqqında ətraflı məlumat verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

# Azad edilmiş ərazilərə növbəti media-tur təşkil olundu

*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinə, nazirliyin idarə və xidmət, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinə, işğaldan azad edilmiş ərazilərdə yerləşən hərbi hissələrə və döyüş mövqelərinə təşkil olunan media-turlar uğurla davam edir. Növbəti istiqamətimiz 44 günlük Vətən müharibəsində düşmən işğalından azad edilən Füzuli rayonunda yerləşən "N" hərbi hissəsinə oldu.*



Hərbi hissədə jurnalistlər şəxsi heyətlə görüşdü, onlardan müsahibələr aldı, şəxsi heyətin xidməti, döyüş fəaliyyətinin təşkili, eləcə də sosial-məişət şəraiti və maddi-texniki təminatı ilə yaxından tanış oldular.

İlkin olaraq media nümayəndələri əsgər yataqxanasında şəxsi heyət üçün yaradılan şəraitlə tanış oldular. Ətraf mühitin səliqə-sahmanı jurnalistlərə xoş təəssüratlar bəxş etdi. Buradakı hərbi qulluqçuların xidmətinin yüksək səviyyədə keçməsi üçün hərtərəfli şərait yaradılıb. Bütün bu amillər isə cəsur əsgərlərimizin xidmətlərini düzgün təşkil etmələri və Ana Vətənimizin keşiyində ayıq-sayıq dayanmaları üçün zəmin yaradır.

Ehtiyatda olan polkovnik-leytenant Bəhruz Rüstəmov media nümayəndələrinə bildirdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, rəşadətli Azərbaycan Ordusunda diqqət yetirilən əsas məsələlərdən biri də hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasıdır. "Bu məqsədlə Müdafiə Nazirliyi tərəfindən yeni tikilən hərbi hissələrdə müasir əsgər yataqxanaları, təbliğat-təşviqat materialları ilə tam təmin olunmuş ideoloji, xidməti, tədris və istirahət otaqları, döyüş texnikası üçün saxlanclar, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana, qazanxana kompleksi və digər obyektlər inşa edilib. Müasir standartlara cavab verən yataqxanalarda əsgərlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb. İdeoloji otaqların da əsgərlərimizin Vətənimizin hərb tarixinin şanlı səhifələri barədə məlumatlarının artırılmasında müstəsna rolu vardır".

Fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz tərkib hissəsidir. Şəxsi heyətin fiziki cəhətdən sağlam, güclü və iradəli olması üçün hərbi hissənin ərazisində idman zalı və şəhərciyi yaradılıb. Müasir standartlara cavab verən idman qurğuları ilə təchiz edilən idman zalında jurnalistlərə müsahibə verən əsgərlər bildirdilər ki, döyüş şəraitində qarşıya qoyulan tapşırıqları vaxtında yerinə yetirmək və müəyyən bir məsafəni silah-sursatla qət etmək üçün yalnız və yalnız fiziki cəhətdən möhkəm olmaq lazımdır. Biz isə 44 günlük Vətən müharibəsində bunun canlı şahidi olduq.

İdmanın kikboks növü üzrə təlimatçı kapitan Nadir Həsənov isə müsahibəsində bildirdi ki, yaradılan şəraitdən lazımınca istifadə edən əsgərlərimiz fiziki hazırlıq məşğələsi nəticəsində iradəli, güclü, dözümlü və sağlamdırlar. Şəxsi heyətimiz daim fiziki hazırlığını artırmaqla məşğuldur. Əsgərlər dərs prosesində tələb olunan normativləri yerinə yetirməyə çalışır, müxtəlif idman alətlərində çalışmalar yerinə yetirərək, əzələlərini möhkəmləndirirlər. Keçirilən idman yarışlarında əsgərlərimiz yaxşı nəticə göstərir, uğur qazanırlar. Mən də öz növbəmdə hər zaman çalışacam ki, bilik və bacarıqlarımı mərd əsgərlərimizlə bölüşüm, onların fiziki imkanlarını daha da artırım".

Hərbi hissənin şəxsi heyətinin idman şəhərciyində hər kəsin bir nəfər kimi və yüksək səslə məşq etməsi jurnalistlərin diqqətini çəkdi. Hər kəs verilən komandaları dəqiq, çevik və asanlıqla yerinə yetirirdi. Məşq edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sahil Cəfərov jurnalistlərə dedi ki, onların hər zaman güclü qalmaları üçün hərbi hissələrində rəhbərlik tərəfindən müasir standartlara cavab verən idman şəhərciyi yaradılıbdır. "Məşğələlərimiz müasir qurğularla təchiz edilmiş idman şəhərciyində və idman zalında keçirilir. Yaradılmış şərait imkan yaradır ki, əsgərlərimizi fiziki cəhətdən möhkəm formalaşdıraq. Onların dərslərdə həvəslə iştirak etməsi məşğələlərimizin daha da səmərəli olmasını təmin edir. Fiziki hazırlıq məşğələsində iştirak edən gənclərimiz isə hər gün daha güclü, dözümlü və çevik olurlar".



Hərbi hissədə əsgərlərin döyüş hazırlığının yüksəldilməsi isə ən vacib amillərdəndir və daim diqqət mərkəzində saxlanılır. Bu səbəbdən media-tur zamanı jurnalistlər hərbi hissənin ərazisində yaradılan mühəndis şəhərciyində dərs prosesini izlədilər. Bildirildi ki, hərbi hissə komandiri tərəfindən təsdiq edilmiş günün nizam qaydasına uyğun olaraq şəxsi heyətə müntəzəm olaraq şəhərcikdəki mühəndis-istehkam qurğularında dərs və məşğələlər keçirilir. Jurnalistlər keçirilən dərs prosesini izlədilər. Belə ki, şəxsi heyət tədris vəsaitlərindən istifadə etməklə şərti düşmənin ərazisinə doğru irəliləyirdi. Baş istehkamçıdan arxada gələn heyət üzvü əlində olan mina axtaran cihazla qarşısında basdırılmış piyada və tank əleyhinə minaları aşkar edir, tapdığı minaların yanına mina işarəsi yazılan bayraqları basdırırdı. Həmin heyət irəliləməklə özündən sonra gələn heyətin də irəliləməsinə şərait yaradırdı. Digər heyət üzvləri isə mina sahəsinin keçidini nişanlayır, zolaq yaradırdı. Zolaq ona görə yaradılır ki, şəxsi heyətin həmin zolaq vasitəsilə irəliləməsi təmin olunsun. Nişanlar isə avtomobilin, yaxud da piyada hərəkət edən bölmələrimizin təhlükəsizliyini təmin edir. Bölmələrin şəxsi heyəti onlar üçün ayrılan rəngi götürərək keçid açılan istiqamətdə hərəkət edir. Beləliklə, qarşıya qoyulan tapşırıqları yerinə yetirən zaman hərbi qulluqçuların mənəvi-psixoloji dözümlülüyü də əsas şərtlərdən biri hesab edilir. Çünki mina axtarmaq səbir tələb edir. İstənilən bir səhv addım həm özünün, həm də yoldaşlarının ölümünə səbəb ola bilər. Buna görə istehkamçının nəzəri biliklə, praktiki vərdişlə yanaşı, mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədə olmalıdır.

Media-tur zamanı təlim poliqonunda jurnalistlər üçün şərti düşmən mövqelərinə keçirilən hücum əməliyyatı da nümayiş olundu. Qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirən şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirdi. Müsahibə verən Milli Müdafiə Universitetinin professoru, tarix elmləri doktoru Mehman Süleymanov dedi ki, izlədiyiniz bu əməliyyat rəşadətli Azərbaycan Ordusunun döyüş hazırlığının yüksək səviyyədə olmasının əyani göstəricisidir. Məhz belə cəsur oğullarımız sayəsində illərdir xain düşmən işğalında qalan tarixi torpaqlarımız gerçək sahibinə qovuşdu. Onların güc və qüvvəti nəticəsində işğalçılar ağır itkilər verərək, geri çəkilmək məcburiyyətində qaldılar. Onların uzun zaman möhkəmləndirdiyi manelərı dəf edən məğrur oğullarımız xalqımıza Böyük Qələbə gününün sevincini bəxş etdilər.

Təlim prosesini izlədikdən sonra jurnalistlər döyüş mövqelərində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşdülər. Əsgərlərimiz Azərbaycan Ordusunda xidmət etmələrindən qürur duyduqlarını və istənilən an qarşıya qoyulan bütün döyüş tapşırıqlarını yerinə yetirməyə hazır olduqlarını dedilər. Bildirdilər ki, Vətənimizin azadlığı və bütövlüyü uğrunda istənilən an canlarından keçməyə hazırdırlar.

Əsgər yeməkxanasında da səliqə-sahman, süfrədəki yeməklərin keyfiyyəti və dadı qonaqlarda çox xoş təəssürat yaratdı. Ehtiyatda olan polkovnik-leytenant Cəsarət Babayev Azərbaycan Ordusundakı bütün əsgər yeməkxanalarının müasir standartlara cavab verdiyini, sanitariya norma və qaydalarına ciddi riayət olunduğunu dedi. Yeməkxanalarda çalışan və xidmət edən bütün heyətin hərbi qulluqçuların qidalanmasının yüksək səviyyədə olması üçün əllərindən gələni əsirgəmədiyini də vurğuladı.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**




# Beynəlxalq Qadınlar Günü münasibətilə silsilə tədbirlər keçirilib

8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçuların, mülki işçilərin və şəhid ailələrinin iştirakı ilə silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə Nazirliyinin rəhbərliyinin təbriki tədbir iştirakçılarına çatdırılıb.

Çıxış edənlər Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli-mənəvi dəyərlərimizə, humanizm ideyalarına xidmət edən və ənənələrimizi qoruyub yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunmasında, eləcə də ölkəmizin müdafiə qüdrətinin artırılmasında və ərazi bütövlüyünün bərpa edilməsində Azərbaycan qadınının bu gün yaxından iştirak etdiyini qeyd ediblər. Bildirilib ki, humanistliyi, müdrikliyi və zəngin dünyagörüşü ilə fərqlənən bacarıqlı qadınlarımız ordu quruculuğunda da öz töhfələrini verirlər.

Azərbaycan Ordusunun bütün qoşun (qüvvə) növlərində, xüsusi təyinatlı təhsil və hərbi tibb müəssisələrində, eləcə də digər bölmələrdə xidmət edən qadın hərbi qulluqçuların, həmçinin mülki qadınların əməyinin daim yüksək qiymətləndirildiyi qeyd olunub. Sonra qadınlara gələcək fəaliyyətlərində və şəxsi həyatlarında uğurlar arzulanıb, fərqlənən bir qrup xanımlar təltif ediliblər.

Sonda tədbirdə iştirak edən qadınlara gül dəstələri və bayram hədiyyələri təqdim olunub.

* * *



Füzuli rayonunun "N" hərbi hissəsində 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram tədbiri keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, hərbi hissənin bütün qadın və qadın hərbi qulluqçuları, hərbi hissənin zabitləri və media nümayəndələri iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayram təbrikləri tədbir iştirakçılarına çatdırıldı.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik-leytenant Anar Eyvazov çıxış edərək bildirdi ki, bu gün qadınlarımızın, bütün şəhid analarının və xanımlarının, döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların ömür-gün yoldaşlarının, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarının bayramıdır. Bu il Azərbaycan qadını 8 Mart - Beynəlxalq Qadınlar Gününü də böyük qürur hissi ilə qeyd edir. Çünki məhz onların Vətən üçün sağlam ruhda böyüdüb boya-başa çatdırdığı övladları 30 illik düşmən işğalına son qoydular. Xain düşmən gülləsinə tuş gələrək, şəhadətə qovuşan şəhidlərimizin qisası alındı. Bu gün biz şəhidlərimizə, qazilərimizə nə qədər borcluyuqsa, bir o qədər də onları əsl qəhrəman kimi böyüdən analara borcluyuq. Əziz xanımlar, mən sizin hər birinizi bu gözəl bayram münasibətilə səmimi-qəlbdən təbrik edir, sizə ailə səadəti, uzun ömür və cansağlığı arzu edirəm.



Tədbirdə çıxış edən polkovnik-leytenant Rauf Niyazov zərif cinsin nümayəndələrini bayram münasibətilə təbrik etdi, qadınlara göstərilən dövlət qayğısından, onların cəmiyyətimizdə tutduqları yüksək mövqedən söz açdı. Bildirdi ki, milli-əxlaqi dəyərlərimizin, adət və ənənələrimizin keşiyində şərəflə dayanan qadınlarımız Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan və qüdrətli bir dövlətə çevirmək yolunda əlindən gələni əsirgəmirlər.

Daha sonra çıxış edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elnarə Səfərova onlara göstərilən bu cür diqqət və qayğıya görə Müdafiə Nazirliyinin rəhbər heyətinə dərin minnətdarlığını bildirdi. "Mən də təbriklərə qoşularaq ilk olaraq bayram münasibətilə şəhid və qazi analarını, bacılarını, onların həyat yoldaşlarını təbrik edirəm. Onlara cansağlığı, ailə səadəti və həyatlarında uğurlar arzu edirəm".

Sonda qadınlara bayram hədiyyələri və çiçək dəstələri təqdim olundu.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

Tarix boyu qəhrəmanlığı, müdrikliyi və yüksək analıq keyfiyyətləri ilə seçilən Azərbaycan qadını mənəvi dəyərlərimizin formalaşmasında, xalqımızın taleyüklü məsələlərinin həllində mühüm rol oynayıb. Bu gün də Azərbaycan qadını cəmiyyətin tamhüquqlu üzvü kimi dövlətimiz tərəfindən yaradılan imkanlardan istifadə edərək müxtəlif sahələrdə özünü sınayır. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət qadın siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qadınların cəmiyyətdəki rolu daha da artaraq dövlət idarəçiliyində təmsil olunmaları və irəli çəkilmələri istiqamətində mühüm işlər görülür.

Prezident İlham Əliyev ölkəmizin qazandığı uğurlarda, 44 günlük Vətən müharibəsindəki şanlı Qələbəmizdə qadınların rolunu yüksək qiymətləndirib: "Azərbaycan qadını milli dövlət quruculuğu işinin fəal iştirakçısı kimi müstəqillik illərindəki nailiyyətlərimizin zirvə nöqtəsinə yüksəlməyimiz və parlaq Qələbə sevinci yaşamağımız naminə var qüvvəsini səfərbər etmişdir. Göz açıb azad gördüyü yurdunu ana qədər müqəddəs bilən, milli ideallara sadiq gənc nəsli də o, məhz öz mənəvi gücü, polad iradəsi hesabına yetişdirmiş, tarixin hökmü ilə ədalətin zəfər çalacağına və haqq işimizin qalib gələcəyinə həmin nəslin qəlbində sarsılmaz inam duyğusu aşılamışdır. Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən dəyərli töhfəsi olan bu nəsil 44 günlük Vətən müharibəsində rəşadəti ilə xalqımızın mübarizlik rəmzinə dönərək ümidləri tam doğrultmuşdur".

1995-ci ildən "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın üzvü olan Azərbaycanda qadınların cəmiyyətdə mövqe tutmalarına, dövlət idarəçiliyində təmsil olunmalarına xüsusi diqqət yetirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, xeyirxah əməlləri bu gün Azərbaycan qadınının nəcibliyindən və fəallığından xəbər verir.

Azərbaycanın şanlı keçmişində şücaəti ilə seçilən qadınlarımız övladlarını Vətən sevgisi ilə böyüdərək yurdumuzun təhlükəsizliyini hər şeydən üstün tutublar. Bu gün qəhrəman xanımlarımızın yoluna sadiq olan qadınlarımız həm də hərbi qulluqçu kimi Vətən qarşısındakı borclarını şərəflə yerinə yetirirlər. Hazırda Azərbaycan Silahlı Qüvvələrində müxtəlif rütbə və vəzifələrdə qadın hərbi qulluqçular xidmət edirlər.

Azərbaycan Ordusunun bütün birləşmə və hissələrində müasir dünya təcrübəsinə uyğun qadın hərbi qulluqçuların xidmət etmələri üçün hərtərəfli şərait yaradılıb. Plana uyğun olaraq təlim-məşq toplantılarına cəlb edilən qadın hərbçilərimizin sayı demək olar ki, bütün qoşun növlərində hər keçən gün daha da artır. Müxtəlif ixtisaslar üzrə yetişən zərif cinsin nümayəndələri hərbi hissələrdə ixtisaslarına uyğun xidmətlərini davam etdirirlər.

8 Mart - Beynəlxalq Qadınlar Gününün ölkəmizdə də geniş şəkildə qeyd olunması qadının həyatımızdakı əvəzsiz rolunun, anaya hörmət və ehtiramın, zəngin mənəvi dəyərlərimizin parlaq ifadəsidir. Göründüyü kimi, bir vaxtlar at belində düşmənə qan udduran mətanətli Azərbaycan qadını bu gün də ciddi intizam tələb edən hərb sənətinin öhdəsindən layiqincə gəlməyi bacarır.

Bayramınız mübarək, ordumuzun zərif qəhrəmanları!

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

# Vətənin müdafiəsində dayanan hərbi qulluqçular ağac əkərək təbiətimizə töhfə veriblər



*Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən növbəti ağacəkmə aksiyası Yel çərşənbəsi günündə Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin əsgər və zabitlərinin iştirakı ilə keçirilib.*



ETSN-in mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, daim Vətənin müdafiəsində dayanan hərbi qulluqçular Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri ilə birgə təbiətimizə töhfə vermək üçün Abşeron rayonunda 3 hektar ərazisində Abşeron yarımadasının iqliminə uyğun 1500 ədəd müxtəlif növ ağac tingi əkiblər.

*Tarix yazan oğullar*

# Üç boyalı sevgi

*Buraxınız, seyr edəyim,*
*düşünəyim, oxşayayım,*
*Şu sevimli üç boyalı,*
*üç mənalı bayrağı.*

Şəhid olan günədək sevdi, oxşadı üç boyalı bayrağı. Evinin ən gözəl guşəsində yerləşdirdi, şad günlərinə şahid tutdu. Birgə Qarabağa yola düşdülər...

Fərminin bayraq sevgisi bir ayrı idi. Həyatının ən xoş gününü - toyunu da 9 Noyabr - Dövlət Bayrağı Gününə salmışdı. Hər tərəfi üçrəngli bayrağa bürümüşdü. Və qəlbində tək arzusu qalmışdı: bu bayrağı işğal altında qalan torpaqlara sancmaq.

Fərmin Əliyev 20 mart 1996-cı ildə Babək rayonunun Şıxmahmud kəndində anadan olmuşdur. İlk təhsilinə Şıxmahmud kənd tam orta məktəbində başlayan Fərmin 2011-2014-cü illərdə təhsilini Heydər Əliyev adına Hərbi Liseydə davam etmişdir. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) "Xüsusi Təyinatlı texnika və sistemlər" ixtisasına yiyələnmişdir. Təhsilini başa vurduqdan sonra xidmətə başlayan leytenant Fərmin Əliyev qısa zamanda məsuliyyəti, bilik və bacarığı ilə nüfuz qazanır. Həmlə kəşfiyyat taborunun üzvü kimi müxtəlif tapşırıqlar icra edir.

General-mayor Polad Həşimovun şəhidlik zirvəsinə ucalması xəbəri hər kəs kimi, Fərmini də sarsıdırdı. Düşmənə intiqam hissi gündən-günə alovlanırdı. Sentyabrın 27-si başlayan Vətən müharibəsi şəhidlərimizin qisasını almağa və işğalda olan torpaqlarımızı düşmənin murdar ayağından xilas etməyə zəmin yaradır. Əldə silah, ürəklərdə silahdan güclü Vətən eşqi igidləri səfərbər edir.

Döyüşlərin gedişatında Gülüstan kəndini və bir neçə kəndi işğaldan azad edirlər. Döyüşlərdən birində Fərminin də olduğu heyət mühasirəyə düşür.



Fərminin xüsusi şücaəti ilə onlar günorta saatlarında mühasirədən çıxmağı bacarırlar. Talış kəndi uğrunda döyüşə davam edən heyət şəhid versə də, haqq savaşına uğurla davam edirir. Bununla belə igidlər həmin kənddə mühasirədə qalan 30 nəfərin köməyinə yetişirlər. Ömrünün bahar çağını yaşayan gənc zabit uğurlu döyüşlərinə baxmayaraq şəhid olur. 1 oktyabrda öz doğma yurduna Fərmin Əliyev sevdiyi bayrağı ilə birlikdə dönür. Torpaqların işğaldan azad olunması arzusuna yelkən açan Fərminin şəhadətə qovuşmasından 23 gün sonra oğlu dünyaya gəlir.

İki bacının tək qardaşı olan Fərminin itkisi anası Fatma xanım üçün ağırdır. Sakit təbiətli Fatma ana ilə söhbətdən məlum olur ki, hərb peşəsi Fərminin öz seçimi olub: "Birinci ili boyu düşmədiyi üçün kəsildi. Lakin peşəyə olan sevgisindən vaz keçmədi. İkinci ili yenidən sənədlərini hərbi liseyə verdi və qəbul oldu. Bizə də onun seçiminə hörmətlə yanaşmaq düşdü", - şəhidin anası dedi.

Fərminin bibisi və orta məktəb müəllimi olmuş Məlahət Tağıyeva Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Qalib əsgərin müəllimi" layihəsinə qatılaraq birinci yerə layiq görülüb. Məlahət müəllimə özü də hərbçi anasıdır. Vətən müharibəsinin iştirakçısı olmuş oğlu baş leytenant Mənsur Tağızadə hazırda xidmətini ordu sıralarında davam etdirir. Məlahət müəllimə hər iki qəhrəmanla qürur duyduğunu bildirdi: "Mənsurla Fərmin eyni sinifdə təhsil alırdılar. Hələ kiçik yaşlarından hər ikisində düşmənə nifrət yaranmışdı. Xocalı faciəsində yaşananları heç cürə qəbul edə bilmirdilər. Elə o vaxtdan ikisi də hərbçi olacağına söz verdi. Onlar verdikləri sözə sadiq qaldılar. Vətənin dar günündə köməyinə yetdilər və bu gün hər ikisinin torpaqlarımızın işğaldan azad olunmasında payı var. Mən bir valideyn və müəllim olaraq hər ikisi ilə qürur duyuram. Fərminin itkisi bizi sarsıtsa da, tarix onun kimi oğulları heç vaxt unutmayacaq. Biz qəhrəman oğullarımızla hər zaman fəxr edəcəyik. Məktəbimizdə guşə yaradılıb. Kəndimizin 3 şəhidi - Birinci Qarabağ müharibəsinin şəhidi gizir Ələddin Dünyamalıyev, 2016-cı il iyulun 14-də Ağdam rayonunun Baş Qərvənd kəndində düşmənin təxribatının qarşısını alarkən şəhid olan kapitan Toğrul Məmmədov və Vətən müharibəsi şəhidi leytenant Fərmin Əliyevin keçdiyi şərəfli döyüş yolu haqqında şagirdlərə məlumat verilir. Gənc nəsil onları tanımalı və belə qəhrəmanlardan örnək götürməlidirlər".

Yoldaşı Fatimə xanım danışmaqda çətinlik çəkir. Deyir toyumuzdan sonra Fərminin üzünü cəmi 4 ay görə bildim. Evliliyimizin birinci ilinin tamamı isə onun şəhadətə qovuşmasının 40-cı gününə təsadüf etdi. Oğluna babası Fərmanın adını vermişik. Peşəsinə o qədər aşiq idi ki, onun üçün ailəsindən də öndə Vətən idi.

Hələ dünyanı dərk etməyən balaca Fərman babası Fərmana sığınıb. Fərman kişi qürurlu və möhkəm adamdır. Oğlunun yadigarını da vətənpərvər ruhda böyüdür. Fərmanın hamının tanıdığı qəhrəman atası Fərminlə fəxr edəcəyini deyir: "3 övladım var. Heç vaxt onları nəyəsə təhrik etməmişəm. Peşə seçimində sərbəstlik vermişəm. Sənədlərini də özü hazırladı, öz əzmi, iradəsi ilə bu peşəni haqq etdi. Təhsilini bitirdikdən sonra bir müddət Goranboyda, daha sonra Mingəçevirdə xidmət etdi. Xidməti dövründə fəxri fərmanlarla təltif olundu. Bizim başımızı heç aşağı əymədi. Uca zirvəyə yüksəldi. Vətənini, torpağını, bayrağını sevdi. Ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olundu. İtkisi ağır olsa da, mən qəhrəmanımla fəxr edirəm".

Hamımız fəxr edirik, Fərman ata. Bir oğulun vətənpərvərliyi həm də ailədən qaynaqlanır. Onun qəhrəman kimi yetişməsində sənin də əməyin var. Sənin kimi atalar var olduqca, bu torpağın müdafiəçiləri - cəsur əsgərləri də daim var olacaqdır. Onlar bu Vətəni qoruyacaq, sevəcək, igidlərin al qanına boyanmış üç boyalı, üç mənalı bayrağı hər zaman zirvələrdə dalğalandıracaqlar!

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# "Gürcüstan ərazi bütövlüyü məsələsində hər zaman qardaş Azərbaycanı dəstəkləyib"

*X Qlobal Bakı Forumu üç əsas parametrlə diqqət çəkir. Bunlar mövzu, iştirakçılar və logistika məsələsidir.*

Bu fikirləri Gürcüstanın sabiq Prezidenti Giorgi Marqvelaşvili X Qlobal Bakı Forumunun ilk günündə AZƏRTAC-a məxsusi müsahibəsində deyib.

Forumda bir neçə dəfə iştirak etdiyini qeyd edən sabiq Prezident onun nüfuzunun ildən-ilə artdığını bildirib. O, əsas formatın təcrübə mübadiləsi olduğunu qeyd edib və dünyanı narahat edən məsələlərin bu tribunadan müzakirə olunduğunu deyib.

Gürcüstanın müstəqillik yolunda inamla irəlilədiyini qeyd edən Giorgi Marqvelaşvili ümidvar olduğunu bildirib ki, yaşanan problemlərə baxmayaraq, hər şey arxada qalacaq və Cənubi Qafqaz ölkələrinin səyləri nəticəsində regionda sabitlik bərqərar olacaq.

"Gürcüstan ərazi bütövlüyü məsələsində hər zaman qardaş Azərbaycanı dəstəkləyib. Azərbaycan bizim strateji tərəfdaşımızdır. Ermənistan da bizim yaxın qonşumuzdur. Gürcüstan öz növbəsində regionda sabitliyin təmin olunması üçün öz səylərini əsirgəmir. Minsk formatı artıq işləmir, biz özümüz səy göstərməliyik. Prezident İlham Əliyevin səyləri də bu istiqamətdədir", - deyə Gürcüstanın sabiq Prezidenti vurğulayıb.

# Xəbərlər: hadisələr, faktlar

## Polşa Ukraynaya daha 10 "Leopard 2" tankı göndərib



Polşa Ukraynaya daha 10 "Leopard 2" tankı göndərib. Bundan əvvəl Varşava Kiyevə dörd belə tank vermişdi.

Bunu Polşanın müdafiə naziri Mariuş Blaşak deyib.

"Biz Ukraynaya daha on "Leopard 2A4" tankını təhvil vermişik", - deyə Blaşak bildirib.

Qeyd edək ki, Polşa müasir "Leopard 2" tanklarını Ukraynaya təhvil verən tərəfdaş dövlətlər arasında ilk ölkədir. Varşava ilk dörd döyüş maşınını genişmiqyaslı müharibənin ildönümündə göndərmişdi.

## Böyük Britaniya Norveçin şimalında hərbi dəniz bazası yaradıb



Norveçin şimalında Böyük Britaniya Kral Dəniz Piyadaları komandolarının hərbi bazası yaradılıb.

Bu barədə Böyük Britaniya Hərbi Dəniz Qüvvələrinin məlumatda bildirilir. Baza növbəti 10 ildə Britaniya qüvvələrinin Arktikada yerləşdirilməsi və təlimi üçün əsas mərkəz olacaq.

"Bazanın yerləşdiyi məkan regionda təhlükələri dəf etmək üçün idealdır və Böyük Britaniyaya NATO-nun şimal sərhədlərini, eləcə də Böyük Britaniyanın yaxın müttəfiqi Norveçi müdafiə etmək üçün lazım gələrsə, operativ reaksiya göstərməyə imkan verir", - deyə Böyük Britaniya Hərbi Dəniz Qüvvələrinin yaydığı sənəddə deyilir.

Bu qış bazada yerləşdirilən Britaniya komandolarının sayı 1000 nəfərə çatıb.

## Ukrayna ABŞ və Almaniyanın vəd etdiyi iki "Patriot" sistemindən birini alıb



Ukrayna ABŞ və Almaniyanın vəd etdiyi raket əleyhinə iki ədəd "Patriot" sistemindən birini alıb, lakin hələ istifadə etməyib.

"Financial Times" qəzeti xəbər verir ki, yaxın zamanlarda Niderlandın da Kiyevə bir neçə "Patriot" sistemi göndərəcəyi gözlənilir.

Nəşrin məlumatına görə, "Patriot" Qərbin silah arsenalında ən müasir orta mənzilli zenit-raket kompleksi olsa da, indiyə qədər Rusiyanın "Kinjal" hipersəs raketlərinə qarşı sınaqdan keçirilməyib.

Bir müddət öncə Pentaqon ABŞ Silahlı Qüvvələrinin Oklahoma ştatında yerləşən "Fort Sill" hərbi bazasında ukraynalı hərbçilərə "Patriot" sistemlərindən istifadə üzrə təlimlər keçmək barədə qərarını elan edib.

## Avstraliya ABŞ-dan dörd nüvə sualtı qayığı almağı planlaşdırır



Avstraliya ABŞ-dan azı dörd Virciniya sinifli nüvə sualtı qayığı almağı planlaşdırır.

CNN kanalı xəbər verir ki, sualtı qayıqların tədarükü 2030-cu illərdə mümkün olacaq.

Avstraliya həm də Amerika komponentlərini özündə birləşdirə biləcək yeni sinif nüvə sualtı qayıqlarının hazırlanması üçün Böyük Britaniya ilə birgə işləyəcək.

ABŞ Prezidenti Cozef Bayden martın 13-də San-Dieqoda Avstraliyanın Baş naziri Entoni Albanese və Böyük Britaniyanın Baş naziri Rişi Sunakı qəbul edəcək.

Görüşdə tərəfdaşlıqda növbəti addımları müzakirə edəcəkləri gözlənilir.

**AZƏRTAC-ın materialları əsasında**

*Medallı igidlərimiz*

# Hər döyüş tarixin bir zərrəsidi...

Müəllimlərinin, sinif yoldaşlarının söhbətlərindən sonramı bu qərara gəlibmiş - evlərində qətiyyətlə hərbçi olmaq istədiyini, C.Naxçıvanski adına Hərbi Liseydə təhsil almağa qərarlı olduğunu deyib. Umacaqlı baxışları bir müddət ata-anasının üzündən üzülməyib. Yeniyetmənin qətiyyəti, qətiyyətinin dönməzliyi o ilin sərin yaz axşamında bir ürək tutumunca işığa dönüb. Bu işıq niyyət işığıydı - Lənkərandan böyük yola, başlanğıcı bu yol olan ömür yoluna düşən işığıydı. Bir yaz günü Elçin Muradov C.Naxçıvanski adına Hərbi Liseyin kursantı oldu... Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin (indiki Heydər Əliyev adına Hərbi İnstitut) kursantı.

Liseydə təhsil alanda bu sahəni seçdiyinə görə özünün, istəyinə razılıq verdiklərinə görə valideynlərinin ünvanına xoş sözlər demişdi. Ali Hərbi Məktəbə qəbul olunandan sonra xəyalən Lənkərana sarı, əzizlərinin ünvanına "Sağ olun ki, ali hərbi təhsil alıram, gözünüz aydın!.." - pıçıldamışdı. İlıq yay küləyi bu gözəl pıçıltının ovqatını Lənkərana çatdırmışdı...

Leytenant Elçin Muradov hərbi xidmətə böyük məsuliyyətlə başlamışdı.



İkinci Qarabağ müharibəsi ərəfəsində kapitan (indi mayordur) Elçin Muradovun xidmət etdiyi hərbi hissə Murovdağ istiqamətindəydi. Döyüş əmri veriləndə hərbi hissə Füzuli rayonuna - Əbdürrəhmanlıya göndərilib. Döyüşə, ermənilərin mövqeyinə - şərti adı "70 metr" olan əraziyə hücuma keçiblər. Düşmən geri çəkilib, səhərisi gün daha şiddətli döyüş olub, əlavə kömək alan ermənilər döyüşçülərimizin mövqeyini minaatanlarla atəşə tutublar. Kapitan Elçin Muradovun ayağına qəlpə dəyib. Onu döyüşdən çıxardıb hospitala göndəriblər. Qəlpə çıxarılıb - ayağın xeyli hissəsini zədələnibmiş. Həkimlər ona ciddi müalicə müəyyənləşdiriblər. Müharibədə döyüş əzmini, qələbə ruhunu axarından saxlamaq olmur - kapitan Elçin Muradov hospitalda cəmi beş gün qala bilib. Əsgərlərindən biri zəng edib, halını soruşub, sabah hücuma keçəcəklərini bildirib. Onda Elçin ciddi-cəhdlə hospitaldan çıxıb döyüşlərə qayıtmağa təkid edib. Bu istəyə, bu niyyətə "Olmaz..." - deyə bilməyiblər...

Xidmət etdiyi hərbi hissədəydi. Yeni mövqe qələbələri qazanmaq, torpaqlarımızı işğaldan azad etmək üçün hücuma keçəcəkdilər. Azərbaycan əsgəri mövqe qələbələrini möhtəşəmliklə davam etdirməliydi.

Oktyabrın 23-ü idi. Əmr dan yeri sökülməmiş verildi. Döyüşçülərimiz artilleriyaçıların atəş dəstəyindən sonra düşmənin möhkəmləndirdiyi sədləri dağıda-dağıda döyüşürdü, döyüşə-döyüşə dağıdırdı. Düşmən möhkəmləndirdiyi mövqedən geri çəkilməyə məcbur oldu...

Xocavənd ətrafında Şiştəpə yüksəkliyi uğrunda döyüş başlayanda kapitan Elçin Muradov döyüşçülərə hücuma qruplar şəklində keçməyi tapşırdı. Belə də etdilər. Sağ cinahda döyüş gərginləşəndə Elçin üç döyüşçünü o istiqamətə göndərdi, özü hücumu digər döyüşçülərlə mərkəzdən davam etdirdi.

Öldürülmüş düşmənləri ötüb keçmişdilər. Bir qədər aralıda səngər vardı. Elçin həmin səngərə düşmək istəyirdi ki, öldürüldüyünü güman etdikləri düşmənlərdən biri əvvəl dikəldi, sonra dizi üstə qalxdı. Atışa başlayanda ayaq üstə dayanmağa heyi qalmadı, yerə çökdü - öldü. Ancaq son nəfəsdə döyüşçülərimizdən birini yaraladı. Yara o qədər də ciddi deyildi. Onu da, yaralarından qan açılan kapitan Elçin Muradovu da hospitala təxliyə etdilər...

Noyabrın 7-si idi...

Kapitan Elçin Muradov Zəfəri döyüşlərdən uzaqda eşitdi, bu sevinci döyüşlərdən uzaqda yaşadı... İkinci Qarabağ müharibəsindən sonra Elçin Muradova növbəti "mayor" hərbi rütbəsi verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

...Mayor Elçin Muradov gənc zabitlərlə, əsgərlərlə söhbətlərində İkinci Qarabağ müharibəsinin döyüşlərindən də danışır - hər təəssürat tarixin bir zərrəsidi. Gənc zabitlər də, əsgərlər də bu təəssüratları tarix kimi yaddaşlarına köçürürlər...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# Sağlamlıq və çeviklik qələbənin rəhnidir



İnsan sağlamlığında fiziki hazırlığın önəmli rolu var. Uşaqlıq, yeniyetməlik çağlarından idmana böyük maraq göstəririk. Ən çətin hesab olunan idman çalışmalarını yerinə yetirməyə can atırıq. Bu da səbəbsiz deyil. Çünki idman insanın sağlamlığına, həm də onun daha da gümrah olmağına zəmin yaradır. Hər birimiz böyüyüb yaşa dolanda özümüzə peşə seçirik. Elə peşələr var ki, burada fiziki hazırlıq mühüm önəm kəsb edir. Hərb sənəti kimi...

Özünə hərbçi peşəsini seçmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Nicat Əliyev fiziki cəhətdən möhkəmdir. Onun bu möhkəmliyi həm sağlamlığına, həm də xidmət zamanı vəzifə borcunu yüksək səviyyədə yerinə yetirməyə zəmin yaradır. Hələ kiçik yaşlarından idmana böyük maraq göstərdiyini deyən Nicat müxtəlif idman oyunlarında bacarığını ortalığa qoyub. Daha çox futbol oynamağı sevən bu gənc gələcəyini peşəkar idmanda deyil, hərbidə görüb. Əslən Ağdamdan olan çavuş Nicat Loğman oğlu Əliyevin doğma rayonu ermənilər tərəfindən işğal olunduğu üçün həmişə qisas hissi ilə yaşayıb. Görmədiyi, ancaq hər zaman getməyə can atdığı Ağdamın azad edilməsi üçün döyüşənlərin sırasında olmaq istəyib. Bunun üçün də hərbçi olmaq qərarına gəlib.

Çavuş Nicat Əliyev "N" hərbi hissəsində xidmət edir. İlk gündən də nümunəvi əsgər olmaq, komandirlərin verdiyi əmr və tapşırıqları vaxtında icra etməyi qarşısına məqsəd qoyub.

Hərbi qulluqçunun yüksək fiziki hazırlığa malik olması onun üçün ən vacib amillərdən biridir. Nicat deyir ki, əsgərin ona təhkim edilmiş silahdan düzgün istifadə etməyi nə qədər önəmlidirsə, fiziki cəhətdən sağlam və çevik olması da bir o qədər gərəklidir. Necə deyərlər, sağlamlıq və çeviklik qələbənin rəhnidir.

Çavuş Nicat Əliyev İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. Suqovuşanın azad edilməsində digər döyüşçülər kimi onun da xidmətləri çox olub. Onunla birlikdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgərlər Elçin Kazımlı və Valeh Hüseynov da Vətən torpaqlarımızın erməni işğalından azad edilməsində böyük igidliklər göstəriblər. Əsgər Elçin Kazımlı döyüşlərdə yaralanıb. Sağalandan sonra döyüş meydanına yenidən qayıdıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə çavuş Nicat Əliyev, əsgər Elçin Kazımlı və Valeh Hüseynov müxtəlif medallara layiq görülüblər.

Adlarını çəkdiyimiz hərbi qulluqçular Vətənimizi göz bəbəkləri kimi qorumaq üçün xidmətlərinə böyük məsuliyyətlə yanaşırlar. Onlar fiziki hazırlıqlarını da daim artırırlar. Günün nizam qaydasına uyğun olaraq idman hazırlığı saatlarında meydançadakı müxtəlif alətlərdə fiziki hazırlıq üzrə normativləri yerinə yetirməyi məşq edirlər. Yaxşı dərk edirlər ki, yüksək idman hazırlığı həm də yüksək döyüş hazırlığına təminatdır.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Gənc bədii gimnastlarımız Almaniyada üç gümüş medala sahib olublar



Gənc bədii gimnastlarımız Almaniyanın Fellbax-Şmiden şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış ediblər.

Qrup hərəkətləri yığmamız turniri üç gümüş medalla başa vurub.

Yarışda ölkəmizi təmsil edən Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova, Zəhra Cəfərovanın yer aldığı qrup hərəkətləri komandamız çoxnövçülüklə yanaşı, 5 ip və 5 topla hərəkətlərin icrasında fəxri kürsünün ikinci pilləsində yer alıblar.

## "Qarabağ" klubu beynəlxalq reytinq cədvəlində irəliləyib

Ağdamın "Qarabağ" klubu Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) reytinq cədvəlində irəliləyib.

307 komandanın olduğu siyahıda Azərbaycan təmsilçilərindən yalnız "Qarabağ" yer alıb. Hesabında 149 xal olan Ağdam təmsilçisi ötən ayla müqayisədə 7 pillə irəliləyərək 62-ci sırada qərarlaşıb. Azərbaycan çempionu Argentinanın "Talyeres" (Kordoba) klubu ilə eyni xala malikdir.

Ağdam klubu Avropa təmsilçiləri arasında 40-cı, postsovet məkanında birincidir.

Reytinq cədvəlinə 313 xalla Braziliyanın "Flamenqo" klubu başçılıq edir. "Real Madrid" 308 xalla ikinci, "Palmeyras" (Braziliya) isə 263 xalla üçüncü pillədə yer alıblar.

## Azərbaycan cüdoçuları "Böyük dəbilqə" turnirini bir medalla başa vurublar




Azərbaycan cüdoçuları Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "Böyük dəbilqə" turnirini bir medalla başa vurublar.

Mübarizəyə qoşulan iki idmançımız yarışla erkən vidalaşıb. Nəriman Mirzəyev Tacikistan təmsilçisi Bahruzi Xocazodaya, Rəşid Məmmədəliyev (hər ikisi 73 kq) yerli idmançı Şaxram Ahadovа uduzub.

Qeyd edək ki, ötən gün millimizin üzvü Əhməd Yusifov (60 kq) bürünc medal qazanıb.

## Azərbaycanlı hakimlər Avropa çempionatının elit-raund mərhələsinə təyinat alıblar

FIFA hakimlərimiz 19 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının elit-raund mərhələsinin oyunlarına təyinat alıblar.

FIFA referisi Elçin Məsiyev və FIFA referi köməkçisi Pərvin Talıbov martın 22-dən 28-dək Polşada təşkil ediləcək altıncı qrupun oyunlarına iştirak edəcəklər.

Bu qrupda İsrail, Polşa, Serbiya və Latviya komandaları mübarizə aparacaqlar.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Vəliyev Xəyyam Vidadi oğluna məxsus MN № 0052128 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Nəsibzadə Zaur Teymur oğluna məxsus SQ № 0019875 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ağabəyov Novruz Böyükağa oğluna məxsus AD № 0050892 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant İbrahim MƏMMƏDBƏYOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 149 Nüsxə 4725 |